

*Estetiklərin, habelə Qərbin qabaqcıl kinofilosoflarının dili ilə desək kino yalnız gerçəkliyi avtomatik olaraq qeydə almır, həm də onu təhlil edərək ümumiləşdirir. Görkəmli kinoşünas Z.Krakauer kinonun tarixi inkişafını təhlil edərək obyektiv bir nəticəyə gəlir ki, "..Kino nəinki yalnız həyat hadisələrini göstərir, həm də onu təhlil edir, ümumiləşdirir, baxıcını müəyyən bir nəticəyə və qənaətə gətirir." Azərbaycan respublikası müstəqillik əldə edəndən sonra istər tarixi baxımdan, istərsə də ideoloji baxımdan həyatı düzgün əks etdirən filmlərə milli kinomuz ehtiyac duymuşdur.*

# Kinomuz müstəqillik illərində

***Çünki milli kinomuz tarixin bütün mərhələlərində ictimai, mədəni tərəqqinin əsas göstəricisi kimi nəzər-diqqəti cəlb etmişdir. Sovet quruluşu həm bütövlükdə sovet kinosuna, o cümlədən Azərbaycan kinosuna, həm də tarixi-inqilabi janrda çəkilən filmlərə öz möhürünü vurmuşdur.İllər ötdükcə tarixi-inqilabi filmlər də sənət baxımından təkmilləşmiş, nəsildən-nəslə ötürülmüşdür.***

XX əsrin 90-cı illəri Azərbaycanın tarixinə həm ən faciəli, həm də ən şərəfli illər kimi daxil oldu. Faciəli ona görə ki, SSRİ dağılar-dağılmaz xalqımız 1990-cı ilin qanlı 20 yanvar hadisələri ilə üz-üzə durdu. Sovet əsgərləri Moskvanın əmrini yerinə yetirərək əli-ayağı yalın, öz istiqlaliyyəti uğrunda ayağa qalxmış insanları güllələbəran etdilər, tankların, BTR-lərin çarxları altına salıb məhv etdilər, küçələrdən keçən qocaları, uşaqları, hətta "Təcili yardım" maşınını güllələdilər.

Görünməmiş qəddarlıqla həyata keçirilən cəza tədbirləri nəticəsində Azərbaycanın yüzlərlə günahsız vətəndaşı yaralandı və qətlə yetirildi. Bununla Azərbaycan xalqına qarşı kütləvi terror aktı həyata keçirildi.

O dövr Azərbaycan tarixinə ona görə şərəfli illər kimi daxil olub ki, həmin o müdhiş gecədə dünən məktəbdə inşa yazarkən özlərini Mehdi Hüseynzadəyə, Gəray Əsədova, Hüseynbala Əliyevə bənzətmək istəyən oğullarımız tankların tırtırları, ölümsaçan güllələr qarşısından bir an geri çəkilməyərək qəhrəmanlıq göstərdilər, öz ölümləriylə hətta ölümə də şərəf gətirdilər.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələrinin Xankəndində yerləşdirilmiş 366-cı motoatıcı alayının zirehli texnikasının və hərbi heyətinin Xocalı şəhərinə hücumu nəticəsində 613 nəfər həlak oldu. Onlardan 63-ü uşaq, 106-ı qadın, 70 nəfəri isə qocalar olub.

Erməni silahlılarının hücumu nəticəsində Xocalıda soyqırım baş vermiş və 8 ailə tamamilə məhv edilmişdir. Ermənilərin əsir götürdüyü 1275 nəfərin 150-si itkin düşüb. Dövlət və əhalinin əmlakına həmin dövrün qiymətlərinə uyğun olaraq 5 milyard rubl, yəni 2-2.5 milyard ABŞ dolları ziyan dəyib.

Lakin bütün bu hadisələrin içərisində Azərbaycanın müstəqillik qazanması xalqımızın əsrlərdən bəri həsrətində olduğu ən böyük arzulardan birinin, demək olar ki, birincisinin həyata keçməsi, reallaşması idi. Bir tərəfdən də erməni faşistlərinin hissə-hissə torpaqlarımızı zəbt etməsi, qanlı müharibə xalqımızı göz açmağa, müstəqilliyin sevincini istədiyi kimi duyma-

ğa imkan vermirdi.

Belə bir şəraitdə əlbəttə, Azərbaycan kinematoqrafçıları əvvəlki kimi var qüvvə ilə işləyə bilmirdilər. Çünki filmlərin istehsalı üçün vəsait çatmırdı. Çəkilən filmlər barədə qəzetlər geniş yer ayıra bilmirdilər. Çünki mətbuatda əsas yer yuxarıda sadaladığım hadisələrə ayrılırdı. Bu da təbiidir. Bununla belə müxtəlif qəzetlərdə kinoya, onun problemlərinə aid müxtəlif janrlarda yazılara rast gəlirik.

90-cı illərdə, daha dəqiq desək, "film qıtlığı" dövründə, demək olar ki, istehsal olunan hər bir film hansısa beynəlxalq kinofestivala gedib çıxırdı. Bunları fərqləndirən cəhətlər onda idi ki, dünyada, respublikamızda baş verən bir çox hadisələr bu filmlərdə öz əksini tapmışdır. Həmin filmlərin müəllifləri bugünkü ziddiyyətləri canlandırmağa, insanın həyatını və taleyini keçmişdə baş verən hadisələrin və bugünkü kataklizm və əsrin hadisələri fonunda göstərməyə çalışmışlar. Hətta quruluşçular üçün "gözəl" aləmin, ABŞ, Türkiyə və s. kimi zəngin ölkələrin rəngarəngliyini göstərmək imkanı yaranmasına baxmayaraq, onlar əsas diqqəti bazar iqtisadiyyatı şəraitində əməyi qiymətdən düşən həkimin, alimin və ya incəsənət xadiminin, ali məktəb müəlliminin, xaricdə bəxti gətirməyən, uğursuz taleyi olan həmyerlilərinin - vətəndaşlarının üzərində cəmləşdirirdilər.

Bu mürəkkəb dövrdə ayrı - ayrı müstəqil studiyaların yaranması nəticəsində həmin illərdə çoxmetrajlı da olsa, ildə 7-8 film çəkilirdi. Amma get-gedə bu studiyalar bir -bir iflasa uğrayıb sıradan çıxandan sonra kinomuzun bütün yükü yenə də "Azərbaycanfilm" kinostudiyasının üzərinə düşdü. Sovet dövründə kinostudiya hökumətə təbliğat maşını kimi lazım olduğundan ona az-çox diqqət ayrılaraq ildə 8 film çəkilməsinə şərait yaradılmışdı. İndi isə kino sənəti təbliğat funksiyasının daşıyıcısı olduğunu bir qədər boynundan atıb, həm də demokratik fikirli ölkədə təbliğat, plakatçılıq təqdim olunan mətnin alt qatında gizlənərək, şüuraltı olaraq tamaşaçının beyninə ötürülür. Müstəqillik dövrünə qədəm qoyduğumuz ilk vaxtlarda "Qara qayafilm", "Amafilm", "Metropol", "Borçalı", "PMT", "Ocaq", "Vahid", "Pakt", "Bəri bax", "İbrus", "Tiflisfilm" və b. kiçik studiyalar fəaliyyətdə idi. Onlardan bəziləri son illərə qədər fəaliyyət göstərir.

90-cı illərdə televiziya ekranlarında, videoprokatlarda əyləncəli, "vurub-yıxan" sujetli filmlər dominantlıq etdiyi halda Azərbaycanda bu cür filmlər çox nadir hallarda çəkilirdi. Bu dövrlərdə çəkilən filmlərə xas olan əlamətlər Qarabağ müharibəsi, Ermənistandan Azərbaycana gələnlər, Sovet hakimiyyətinin dağılması, maliyyə çatışmamazlığı, neftə olan maraq, əsrin kontraktı və siyasi oyunlar idi. Bütün bunlarla bağlı hadisələr kinematoqrafa təsir göstərməyə bilməzdi. Və filmlər yalnız bu problemlər olan zaman maraq doğura bilərdi.

1990 - 2000-cı illərin keçid dövrünü yaşayan Azərbaycan kinosu bazar iqtisadiyyatı şəraitində çətin vəziyyətə düşdü. Buna baxmayaraq kinematoqrafçılarımız vəziyyətdən çıxış yollarını arayır, dövlət və sponsor vəsaiti hesabına filmlər çəkirdilər. Bu filmlərə "Hava məbədgahı", "Qətldən yeddi gün sonra", "Nakəs", "Pəncərə", "Yuxu", "Yük", "Ailə", "Özgə vaxt", "Məkanın melodiyası", "Yarasa" və başqa filmləri misal göstərmək olar. Bu illər ərzində kinematoqrafçılarımız Qarabağ müharibəsinə aid filmlər istehsal etməyə başlamışlar.

***Azərbaycan kinematoqrafçıları vətəndaşlıq mövqeyindən çıxış edərək ermənilərin Qarabağa təcavüzünü, Qarabağ müharibəsinin mahiyyətini və səbəblərini kinonun geniş imkanları vasitəsilə açıb göstərən "Fəryad", "Sarı gəlin", "Hücum", "Ağ atlı oğlan", "Tələ", "Haray", "Qarabağ şikəstəsi" və s. bədii filmlərini yaratmışlar.***

**Şəbnəm MƏMMƏDOVA**